# Azərbaycan Respublikası
# Elm və Təhsil Nazirliyi

## Bakı Şəhəri üzrə
## Təhsil İdarəsi

TDM

Təlimə Dəstək Mərkəzi

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
Bakı Şəhəri üzrə Təhsil İdarəsi

Təlimə Dəstək Mərkəzi

# İllik və gündəlik planlaşdırma

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
Bakı Şəhəri üzrə Təhsil İdarəsi

Təlimə Dəstək Mərkəzi

**İllik planlaşdırma müəllimin bir akademik tədris ili ərzindəki sinifdaxili, sinifdənxaric və məktəbdənkənar fəaliyyətini tənzimləyən, tədrisin təşkili ilə bağlı məsələləri özündə əks etdirən sənəddir.**

# Tədris ili ərzində İllik planlaşdırmada dəyişikliklər edə bilərikmi?

**İl ərzində baş verəcək hər hansı dəyişikliklərə çevik uyğunlaşmaq üçün illik planlaşdırmaya əlavə və ya ixtisarlar etmək mümkündür. Bunun üçün qeyd yerindən istifadə edilə bilər.**

**Gündəlik planlaşdırma illik planlaşdırmanın müvafiq gününə qeyd olunmuş altstandart və mövzu ilə eyni olmalıdır. Əgər müəllim müxtəlif səbəblərdən həmin gün üçün fərqli planlaşdırma edibsə, bu dəyişiklik müvafiq olaraq illik planda öz əksini tapmalıdır.**

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
Bakı Şəhəri üzrə Təhsil İdarəsi

Təlimə Dəstək Mərkəzi

# Gündəlik planlaşdırma

**Dərsin gündəlik planı müəllimin məhsuldar dərs keçməsi və nəzərdə tutulan məqsədlərə çatması üçün ona bələdçi rolunu oynayır. Bu bələdçidən istifadə edərək müəllim məzmunu şagirdlərə məntiqi ardıcıllıqla çatdıra bilir. Dərs planı elə bir yol xəritəsidir ki, bizi hədəfə aparır. Öncədən planlaşdırılan istənilən fəaliyyətin daha yaxşı nəticələrə gətirib çıxardığını gündəlik həyat təcrübələri də təsdiq edir.**

## GÜNDƏLİK PLAN

| | |
|---|---|
| Sinif/Tarix | |
| Altstandart | |
| Mövzu | |
| Məqsəd (Təlim nəticəsi) | |
| Qiymətləndirmə meyarı | |
| Resurs | |

### Dərsin gedişatının qısa təsviri

| |
|---|
| Mövzuya maraq oyatma: |
| Öyrənmə prosesi (bilik, bacarıqların formalaşdırılması və formativ qiymətləndirmə): |
| Qiymətləndirmə / Refleksiya: |
| Ev tapşırığı: |

# Verilən gündəlik plan nümunəsi iki hissədən ibarətdir

## 1-ci hissə - başlıqlara uyğun olaraq müvafiq xanalar doldurulur.

| | |
|---|---|
| Sinif/Tarix | |
| Altstandart | |
| Mövzu | |
| Məqsəd (Təlim nəticəsi) | |
| Qiymətləndirmə meyarı | |
| Resurs | |

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
Bakı Şəhəri üzrə Təhsil İdarəsi

# 1-ci hissə

TDM
Təlimə Dəstək Mərkəzi

| |
|---|
| Sinif/Tarix |
| Altstandart |
| Mövzu |
| Məqsəd (Təlim nəticəsi) |
| Qiymətləndirmə meyarı |
| Resurs |

1. altstandartı müəyyən edirik
2. Altstandart seçildikdən sonra onu reallaşdıracaq mövzunu qeyd edirik
3. altstandart və mövzumuzun əhatə dairəsinə uyğun olaraq dərsin məqsədini müəyyən edirik
4. Dərsin məqsədinə əsasən qiymətləndirmə meyarını müəyyən edirik
5. Resurslar bölməsinin yazılması mövzuya və dərsin strukturuna görə müəyyən edilir.

## Bu hissədə dərs boyunca icra ediləcək fəaliyyətlər qısaca qeyd edilir.

### Dərsin gedişatının qısa təsviri

| |
|---|
| **Mövzuya maraq oyatma:** |
| **Öyrənmə prosesi (bilik, bacarıqların formalaşdırılması və formativ qiymətləndirmə):** |
| **Qiymətləndirmə / Refleksiya:** |
| **Ev tapşırığı:** |

# 2-ci hissə



## Mövzuya maraq oyatma:

Öncəlikllə dərsə giriş üçün “Movzuya maraq oyatma” addımı ilə başlayırıq. Yaxşı olardı ki, planlaşdırma edərkən şagirdlərin dərsə cəlb edilməsi üçün hər hansı bir fəaliyyət nəzərdə tutulsun və o da planda qısaca qeyd edilsin. Bu mərhələdə şagirdlərə tanış olan bir situasiyadan istifadə edərək suallar verilir və onlar müzakirəyə dəvət olunurlar. Məqsəd şagirdlərin ilkin bilikləri ilə dərsin təlim nəticələri arasında əlaqə qurmaq, mövzuya maraq oyadaraq onları öyrənməyə sövq etməkdir. Müəllim bu mərhələnin yekununda dərsin məqsədini şagirdlərə elan edir. Şagirdlərin diqqətinin cəlb edilməsi və unudulmaması üçün məqsədin lövhədə yazılması tövsiyyə olunur.

# 2-ci hissə



**Öyrənmə prosesi (bilik, bacarıqların formalaşdırılması və formativ qiymətləndirmə)**

**Növbəti addımda məqsədə çatmaq üçün öyrənmə prosesini planlayırıq. Müəllim planın bu hissəsində şagirdlərə məzmunu mənimsətmək üçün ardıcıl olaraq hansı təlim strategiyalarından necə istifadə edəcəyini qeyd etməlidir. Nəzərə almaq lazımdır ki, hər bir fəaliyyətin ardınca şagirdlərin nə dərəcədə mənimsədiyini müəyyənləşdirmək üçün formativ qiymətləndirmə üsulu kimi hər hansı bir tapşırıqdan istifadə edilməlidir.**

## 2-ci hissə



**Qiymətləndirmə / Refleksiya:**

**Öyrənmə prosesinin bütün addımları yekunlaşdıqdan sonra şagirdlərin məqsədə nə dərəcədə çatdığını müəyyənləşdirmək və onlara dolğun rəy verə bilmək üçün qiymətləndirmə meyarları üzrə hər hansı bir üsuldan (sual-cavab, çıxış bileti, refleksiya, özünüqiymətləndirmə, qarşılıqlı qiymətləndirmə, rubrik və s.) istifadə etməklə formativ qiymətləndirmə aparılır.**

**Ev tapşırığı:**

**Sonuncu hissədə ev tapşırığı bölməsinin yazılması mövzuya və dərsin strukturuna görə dəyişə bilər. Ev tapşırığının verilib-verilməməsi situasiyadan asılı olan bir məsələdir. Yəni hər dərs üçün ev tapşırığının verilməsi mütləq deyil. Tapşırığın verilməsi qədər onun yoxlanılabilən olması, şagirdlərin tapşırıqları yerinə yetirmə imkanları nəzərə alınmalıdır.**

**Plan tərtib edərkən iş üsul və formaları, qiymətləndirmə vasitələri və bütün fəaliyyətlərin seçimi müəllimin səlahiyyətindədir. Çünki şagirdlərin təlim ehtiyaclarını ən yaxşı o dərsi keçən müəllim bilir. Amma bu mütləqdir ki, istənilən dərsin məqsədi (təlim nəticəsi), bu təlim məqsədinə çatmağa xidmət edən fəaliyyətlər və dərsin məqsədinə uyğun qiymətləndirmə olsun və bunlar gündəlik planda öz əksini tapsın.**

# VII sinif

# Azərbaycan Respublikasının iqlimi mövzusunun gündəlik planı

| | |
|---|---|
| **Sinif/Tarix** | **VII sinif** |
| **Altstandart** | **2.1.3. Atmosferdə baş verən hadisə və proseslərin materik və okeanlara təsirini şərh edir.** |
| **Mövzu** | **Azərbaycan Respublikasının iqlimi** |
| **Məqsəd (Təlim nəticəsi)** | **Azərbaycanın iqlim tiplərinin xüsusiyyətlərini və ərazi üzrə dəyişməsini şərh edir** |
| **Qiymətləndirmə meyarı** | **- İqlim tiplərinin xüsusiyyətlərini şərh edir** |
| | **- İqlim tiplərinin ərazilər üzrə dəyişməsini fərqləndirir** |
| **Resurs** | **Dərslik, xəritə** |

# Dərsin gedişatının qısa təsviri

**Mövzuya maraq oyatma:**

- **Azərbaycanda neçə iqlim qurşağı var?**

**Öyrənmə prosesi (bilik, bacarıqların formalaşdırılması və formativ qiymətləndirmə):**

- **Azərbaycanda iqlim tiplərinin yaranması və müxtəlifliyinin səbəbləri haqqında qısa izahat**
- **Qrup işi (Ziqzaq) dərslikdəki mətndən istifadə etməklə iqlim tiplərinin xüsusiyyətlərini aydınlaşdırmaq**
  **1.Yarımsəhra və quru çöl 2. Mülayim-isti 3.Soyuq 4.Dağ-tundra**

**Tapşırığın mənimsənilməsinin yoxlanması (formativ qiymətləndirmə üsulu kimi)**

**1.Yarımsəhra və quru çöl**

**2. Mülayim-isti**

**3.Soyuq**

**4.Dağ-tundra**

**a**. Əsasən düzənliklərimizdə yayılıb
**b**. Respublikada 2700m-dən yüksəkdə olan ərazilər üçün səciyyəvidir
**c**. Yayın mülayim, qışın isə şaxtalı keçməsi səciyyəvidir.
**d**. Orta illik temperatur 0° C-dən aşağıdır.
**e**. Azərbaycanda ən çox yağıntı bu ərazilərə düşür
**ə**. Böyük və Kiçik Qafqaz, Talış dağlarının alçaq dağlıq ərazilərində, Lənkəran ovalığı və Qanıx-Əyriçay vadilərində yayılıb
**f**. Daha böyük ərazini əhatə edir
**g**.Yay ayları isti və quraq, qış isə mülayim və nisbətən rütubətli keçir

- **Hər bir şagird fərdi şəkildə atlasdan istifadə etməklə Azərbaycanın iqlim və siyasi-inzibati xəritəsini tutuşduraraq istədiyi bir rayonu seçir. Seçilən rayona uyğun gələn iqlim tipinin xüsusiyyətləri mətndən və əlavə resursdan istifadə edilməklə öyrənilir ( Rayonun relyefi, iqliminin fəsillər üzrə xarakteri, illik yağıntınını miqdarı). Təmsil iş üsulundan istifadə etməklə hər bir şagird təmsil etdiyi rayonun adından yerində qısa təqdimat edir**

**(Mən Zərdabam. Kür-Araz ovalığında yerləşirəm. İqlimim quraqdır. İl ərzində 200-400 mm yağıntı düşür. Yay aylarım isti və quraq, qışda mülayim və nisbətən rütubətli olur)**

**Qiymətləndirmə / Refleksiya:**

**Çıxış bileti**

**Verilən ərazilərə uyğun gələn iqlim tipini və onun bir spesifik xüsusiyyətini yazın.**

1. **Kür-Araz ovlaığı** ⟶
2. **Talış dağlarının ətəyi** ⟶
3. **Naxçıvanın Arazboyu düzənlikləri** ⟶
4. **Böyük və Kiçik Qafqazın zirvələri** ⟶

**Ev tapşırığı:**

- **Dərslikdən səhifə 81, öyrəndiklərinizi yoxlayın tapşırığı**

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
Bakı Şəhəri üzrə Təhsil İdarəsi

Təlimə Dəstək Mərkəzi

AZ 1007, Azərbaycan Respublikası, Bakı şəhəri, Xan Şuşinski – 17

www.tdm.edu.az

info@tdm.edu.az

telimedestek@gmail.com

www.fb.com/tdm.edu.az

# Diqqətinizə görə təşəkkür edirik